**UOT 94(479.24)**
https://doi.org/10.59849/2218-4783.2026.2.21

# NƏHƏCİR KƏNDİ: TARİXİ, ABİDƏLƏRİ

# NAHAJIR VILLAGE: HISTORY, MONUMENTS

**Hacifəxrəddin SƏFƏRLİ***

**XÜLASƏ**

Məqalədə Babək rayonunun Nəhəcir kəndinin tarixindən və yaşayış məskəninin ərazisində indiyədək gəlib çatan abidələrdən bəhs olunur. Nəhəcir toponiminin mənşəyi haqqında bəhs olunan məqalədə qeyd edilmişdir ki, yaşayış yerinin adı Dünya tufanı zamanı Naxçıvana gələn Nuh peyğəmbərin adından törəmişdir. Kəndin ərazisində indiyədək gəlib çatan qədim yaşayış məskənlərində və onlara məxsus nekropollarda aparılan arxeoloji tədqiqatların nəticələri göstərir ki, insanlar kəndin ərazisində e.ə. III-II minilliklərdən başlayaraq məskunlaşmışlar və zəngin mədəniyyət yaratmışlar. Məqalədə qədim və orta əsrlərə aid olan bu arxeoloji abidələr, kəndin orta əsrlər dövrü tarixi, ərazidə indiyədək gəlib çatan epiqrafik abidələr, həmçinin kənddə mövcud olan və yerli əhali tərəfindən ziyarət olunan pirlər haqqında qısa məlumat verilmişdir.

**Açar sözlər:** *Babək rayonu, Nəhəcir kəndi, yaşayış yeri, nekropol, məscid, kitabə, ziyarətgah.*

**ABSTRACT**

The article explores the history of Nahajir village in the Babek District and the historical monuments that have survived within its territory. It discusses the origin of the toponym "Nahajir," according to which the name derives from the Prophet Noah, who is believed to have come to Nakhchivan during the Great Flood. The results of archaeological excavations conducted at ancient settlements and associated burial sites indicate that the area has been inhabited since the 3rd-2nd millennia BC and was home to a rich and developed culture. The article also provides brief information about these ancient and medieval archaeological monuments, the medieval history of the village, the epigraphic monuments preserved in the area, as well as the sacred sites that continue to be visited by the local population.

**Keywords:** *Babek district, Nahajir village, place of settlement, necropolis, mosque, inscription, shrine.*

## GİRİŞ

Nəhəcir kəndi Babək rayonunun mərkəzi Babək şəhərindən 22 kilometr şimalda, dağ ətəyində yerləşir. Nəhəcir kəndi 1930-cu ildə Azərbaycanda rayonlaşdırılma aparılarkən əvvəl Əbrəqunus, 5 yanvar 1949-cu ildə Əbrəqunus rayonunun ləğv edilməsindən sonra isə Culfa rayonunun tərkibinə daxil edilmişdir. 2014-cü ildə Babək rayonunun inzibati-ərazi quruluşunda qismən dəyişiklik edildi. Belə ki, coğrafi cəhətdən Culfa rayon mərkəzinə uzaq, Babək rayon mərkəzinə isə yaxınlığını nəzərə alaraq Azərbaycan Respublikasının Milli Məclisi "Naxçıvan Muxtar Respublikasının Babək və Culfa rayonlarının inzibati-ərazi bölgüsündə qismən dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununu qəbul etdi. Qanun 28 dekabr 2014-cü ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən təsdiq edildi. Qanuna əsasən Culfa rayonunun inzibati-ərazi bölgüsünə daxil olan Göynük və Nəhəcir kəndləri Babək rayonunun inzibati-ərazi bölgüsünə daxil edildi.

"Nəhəzi" toponiminin izahı ilə əlaqədar müxtəlif fikirlər vardır. "Nəhəcir"i respublikamızda ən qədim toponimlərindən biri kimi xarakterizə edən A.Bağırov tədqiqatçıların fikrinə əsaslanaraq qeyd

*Naxçıvan Dövlət Universiteti, e-mail: seferli949@mail.ru
ORCID: 0009-0007-1665-8906

edir ki, kəndin adı Nuh peyğəmbərin gəmisinin düşdüyü Gəmiqaya dağının yaxınlığındakı Nəhəcir (hündürlüyü 1799 metr) dağının adı ilə adlanmışdır. Toponim Nuh peyğəmbərin adı və fars dilindəki cir (yamac, maili yer) sözlərindən ibarət olub "Nuhun yamacı" mənasındadır. Həmçinin, A.Bağırov K.N.Smirnovun Nəhəcir adını "Dağ keçisi" mənasında açıqladığını xatırladır və qeyd edir ki, bizim fikrimizcə Nəhəcir adının Nuh peyğəmbərin adı ilə bağlı açıqlanması fikri daha inandırıcıdır [Bağırov, 2008: 172].

Bu haqda bir az fərqli fikirdə olan tarix üzrə fəlsəfə doktoru Z.Rzayev Nəhəcir yer adından bəhs edərək yazır ki, "Nəhəcir" sözünün Nuh peyğəmbərin adı ilə əlaqədar olduğunu söyləyən informatorlar onun "Nuh" və "əcir" sözlərindən yarandığını iddia edir, "əcir" sözünün yol mənasında işləndiyini bildirirlər. "Əcir" sözünü əzab, əziyyət kimi iddia edən informatorlar isə Nuhun gəmisinin ən çox bu ərazidə maneələrə rast gəlməsi ilə əlaqələndirirlər" [Rzayev, 2013: 33].

Göründüyü kimi, hər iki fikirdə adın ilk hissəsi Nuh peyğəmbərlə əlaqələndirilir. Biz də Nəhəcir yer adının Dünya tufanı zamanı Nuh peyğəmbərin və tərəfdarlarının mindiyi gəminin Ordubad rayonu ərazisindəki Gəmiqaya adlı yerdə quruya oturması və gəmidəkilərin Nuh peyğəmbərlə birlikdə gəmidən çıxaraq Naxçıvan ərazisində məskunlaşmaları ilə əlaqədar yaranmış toponimlərdən olması fikrindəyik.

Kəndin ərazisində müxtəlif dövrlərə aid üç yaşayış yerinin və üç nekropolun olması onun keçmişdəki inkişaf səviyyəsindən xəbər verir. Nəhəcir kəndinin şimal-şərq tərəfində yerləşən və şərti olaraq I Nəhəcir yaşayış yeri adlandırılan qədim yaşayış yeri Tunc dövrünə aiddir. Sahəsi təqribən 10 hektar, mədəni təbəqəsinin qalınlığı təxminən 3 metr olan bu arxeoloji abidədən monoxrom boyalı, boz, qara rəngli gil qab qırıqları, dən daşları, süzgəclər, həvəngdəstələr və sair aşkar olunmuşdur. Nəhəcir yaşayış yerində V.Baxşəliyev və A.Seyidov 2011-ci ildə qazıntı aparmış, daşdan inşa olunmuş divar qalıqları və boyalı keramika məmulatı aşkar olunmuşdur [Baxşəliyev, 2008: 166-167]. Tapıntıların təhlilinə əsasən burada insanların təxminən e. ə. III minilliyin sonlarından məskunlaşmağa başladığını ehtimal etmək olar.

Kəndin şimal-şərqində yerləşən Tunc dövrünə aid yaşayış yerinin şimal qurtaracağında həmin dövrə aid nekropol da vardır. Buradakı daş, qismən də torpaq kurqanlardan Azərbaycan Boyalı qablar mədəniyyətinin ilk mərhələsi üçün səciyyəvi olan monoxrom boyalı küplər, cızma və basma naxışlı boz və qara rəngli saxsı qablar və sair əldə edilmişdir. Boyalı qabların üzərindəki heyvan, quş və adam təsvirləri motivinə, ölçülərinə və sxematikliyinə görə, Gəmiqayanın bir qrup rəsmləri ilə eyniyyət təşkil edir. Nekropolun ərazisində diametri 11 metr olan, ətrafı dairə boyunca sal daşlarla əhatə olunmuş kurqan vardır. Kurqan 2000-ci ildə arxeoloq alimlərdən V.Baxşəliyev və A.Seyidov tərəfindən tədqiq olunmuşdur. Tədqiqatlar zamanı burada insan skeletinə təsadüf olunmasa da heyvan sümükləri, keramika məmulatları aşkar olunmuşdur. Əldə olunan bu materialların təhlilinə əsasən kurqan e.ə. III-II minilliklərə aid edilmişdir (Naxçıvan abidələri..., 2008: 377).

Nekropolun ərazisində, həmçinin bir kromlex də qeydə alınmışdır. Diametri 10 metr olan kromlex dairə boyunca iri sal daşlarla əhatə olunmuşdur. Kromlexdən tapılmış maddi-mədəniyyət nümunələri onun Nəhəcir nekropolunun oxşar arxeoloji abidələri ilə eyni dövrə aid olduğunu təsdiq edir. Nəhəcir nekropolundan aşkar olunmuş gil məmulatı Azərbaycan Boyalı qablar mədəniyyətinin ilk mərhələsi üçün xarakterik olub, e. ə. III minilliyin sonu və II minilliyin əvvəllərinə aiddir [Baxşəliyev, 2008: 171].

Nəhəcirin şimal-qərbində qeydə alınan II Nəhəcir yaşayış yeri isə orta əsrlər dövrünə aiddir. Burada aparılan kəşfiyyat xarakterli tədqiqatlar zamanı dördkünc formalı bina qalıqları, iki böyük kül təpəsi, çəhrayı rəngli küpə, kasa tipli həndəsi və nəbati ornamentlərlə bəzədilmiş şirsiz və şirli qab qırıqları toplanmışdır. Burada 2006-cı ildə aparılan tədqiqatlar zamanı yaşayış yerinin müdafiə divarları ilə əhatə olunduğu müəyyən edilmişdir.

Nəhəcir kəndi ərazisində yerləşən II Nəhəcir yaşayış yerinin qərb tərəfində, uzunsov təpə üzərində yerləşən və yaşayış yerinə məxsus olan II Nəhəcir nekropolu da yaşayış yeri kimi orta əsrlərə

aiddir. Yerli əhalinin dediyinə görə, qəbiristanlıqda vaxtilə çoxlu xatirə abidəsi, xüsusilə daş qoç fiquru tipli qəbirüstü xatirə abidələri olsa da, onlar indiyədək qalmamışdır. Nekropolda arxeoloq V.Baxşəliyev 1991-ci ildə kəşfiyyat xarakterli tədqiqatlar aparmışdır [Baxşəliyev, 2008: 171].

Şərti olaraq III Nəhəcir yaşayış məskəni adlandırılan arxeoloji abidə isə Nəhəcir kəndinin qərb tərəfində yerləşir. Yaşayış yeri 1990-cı ildə Azərbaycan EA Naxçıvan Elm Mərkəzinin arxeoloji ekspedisiyası tərəfindən qeydə alınmış və kəşfiyyat xarakterli tədqiqatlarla öyrənilmişdir. Abidədə aparılan kəşfiyyat xarakterli tədqiqatlar zamanı əldə olunan yerüstü materiallar, o cümlədən çəhrayı və boz rəngli gil qab (kasa, küpə, nimçə və sair) parçalarına əsasən yaşayış yerinin Dəmir dövrünə (e. ə. VI-IV əsrlər) aid olması qənaətinə gəlinmişdir [Baxşəliyev, 2008: 172].

Nəhəcir kəndinin yaxınlığında yerləşən və onun adını daşıyan dağın sıldırım qayalı cənub hissəsində 2001-ci ildə Naxçıvan arxeoloji ekspedisiyası tərəfindən qala tipli arxeoloji abidə aşkar olunaraq tədqiq olunmuşdur. Tədqiqatlar zamanı əldə edilən arxeoloji materiallara əsasən abidənin XVII-XIX əsrlərə aid olması müəyyənləşdirilmişdir [Naxçıvan abidələri..., 2009: 377-378].

Dağın cənub və şərq ətəklərindəki terraslarda iri qaya parçalarından siklop tipli müdafiə sədləri tikilmişdir. Divarların eni 2-2,5 metrdir. Qalanı Nəhəcir dağının cənub ətəyindəki düzən sahədə yaşamış və iqtisadi mədəni cəhətdən inkişaf etmiş qədim tayfalar düşmən basqınlarından müdafiə məqsədi ilə tikmişlər.

Bütövlükdə Nəhəcir kəndində aparılan tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, burada yaşamış tayfalar arasında sənətkarlıq yüksək səviyyədə olmuş və Nəhəcir dulusçuluq mərkəzi Naxçıvan Boyalı qablar dulusçuluq məktəbinin əsas istehsal ocaqlarından biri və ərazidə yayılan mədəniyyətin tərkib hissəsi olmuşdur. Həmçinin müəyyən olunmuşdur ki, qədim tayfaların rəng əldə etmək üçün istifadə etdikləri auropiqment və realqar minerallarının Boyalı qablar mədəniyyətinin yayıldığı arealda yeganə ərazisi Nəhəcirin daxil olduğu bölgədir.

Nəhəcirdə əldə olunmuş keramika, nümunələrinin Naxçıvan Muxtar Respublikasının digər Orta Tunc dövrü abidələrindən tapılmış maddi-mədəniyyət nümunələri ilə morfoloji, tipoloji və ornamentasiya oxşarlıqlarına əsaslanaraq Naxçıvanda tayfalararası mədəni, iqtisadi əlaqələrin olduğu aşkar edilmişdir. Həmçinin Nəhəcir ərazisində yaşamış tayfaların digər tayfalarla etnogenetik əlaqələr yaratması, sonrakı dövrlərdə bu tayfaların digər tayfalarla hərbi, dini və tayfa birliklərinin yaranmasında və müasir etnosun formalaşmasında böyük rol oynadığı qənaətinə gəlinmişdir.

Nəhəcir ərazisində Dəmir və İlk orta əsr yaşayış məskənlərinin olmasına əsasən söyləmək olar ki, Nəhəcir ərazisindəki tayfalar kiçik yerdəyişmələrlə uzun müddət burada məskunlaşmışlar və burada yaşayan yerli tayfalar ərazidə yaşayan müasir etnosla sıx bağlıdırlar. Ərazidə tapılmış keramika nümunələrinin Ön Asiya, Yaxın Şərq, Zaqafqaziya və Şimali Qafqaz ərazilərindəki keramika nümunələri ilə müqayisələri aparılmış və müasir etnosun formalaşmasında iştirak etmiş qədim türk tayfaları haqqında elmi məlumat əldə edilmişdir.

Nəhəcirdə aparılmış arxeoloji tədqiqatlar belə bir qənaətə gəlməyə imkan verir ki, qədim zamanlarda Naxçıvan Muxtar Respublikası ərazisində yaşamış tayfalar həyatın bütün sahələri üzrə bir-birləri ilə bağlı olmuşlar. Nəhəcirdə yaşamış tayfalar isə bu bağlılığın bir parçası olmaqla, regionda yaşamış tayfaların heç bir zaman diqqətindən kənarda qalmamışlar [Rzayev, 2013: 147-148].

Qədim dövrdə yüksək inkişaf səviyyəsində olan Nəhəcir kəndi haqqında orta əsr mənbələrində də az da olsa məlumatlar gəlib çatmışdır. Nəhəcir kəndi 1590-cı ilə aid "İrəvan əyalətinin icmal dəftəri"nə görə, Naxçıvan qəzasının Naxçıvan nahiyəsinə daxil olmuşdur. Mənbədə yaşayış məskəninin adı Nəhəcur kəndi kimi qeyd olunmuşdur [İrəvan əyalətinin, 1996, s. 164].

Başqa bir Osmanlı mənbəsində, Osmanlı dövlət məmurları tərəfindən 1727-ci ildə tərtib olunmuş "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə isə Nəhəcir kəndi Naxçıvan sancağına tabe olan Sair Məvazi nahiyəsinin tərkibinə daxil edilmişdir. Mənbənin məlumatına görə XVIII əsrin əvvəllərində də Nəhacur adlanan kənd osmanlılara ildə 8333 ağça vergi ödəmişdir [Naxçıvan sancağının, 2001: 26, 101-102].

Rus məmuru İ.Şopenin verdiyi məlumata görə, Rusiyaya ilhaq olunan dövrdə Naxçıvan mahalına daxil olmuşdur. Həmin vaxt kənddə 16 ailədə birləşən 42-si kişi, 37-si qadın olmaqla 79 nəfər yaşayırmış [Şopen, 1852: 607-610].

Ərazisində e. ə. III-II minilliklərə aid maddi-mədəniyyət nümunələri aşkar edilən Nəhəcir kəndi də epiqrafik abidələrlə çox zəngin deyildir. Epiqrafik cəhətdən burada, kəndin cənub tərəfində yerləşən məscidin üzərində bir neçə kitabə qeydə alınmışdır.

Nəhəcir kəndinin qərb tərəfində uzunsov təpənin üzərində, el arasında "Dikin başı" adlandırılan ərazidə yerləşən və arxeoloji ədəbiyyatda şərti olaraq II Nəhəcir nekropolu adlandırılan qəbiristanlıqda yerli əhalinin dediyinə görə, vaxtilə çoxlu sayda daş qoç və qoyun heykəli tipli qəbirüstü xatirə abidəsi olmuşdur. Ancaq, onların bir hissəsi Sovet hakimiyyəti illərində ermənilər tərəfindən gizli şəkildə oğurlanaraq Ermənistana aparılmış, qalanları isə dağıdılaraq məhv edilmişdir. Ancaq, son illərdə qəbiristanlıqda üzərində kitabə olan, qırmızımtıl daşdan hazırlanmış, ancaq baş tərəfi sındırılmış bir ədəd qoç heykəli qeydə alınaraq tədqiq edilmişdir. Heykəlin yan tərəfində oyma üsulu ilə yazılmış kitabənin mətninin tərcüməsi belədir:

"Məşədi İmamverdi. 1321-ci il".

***1321 h.i. = 30.03.1903-17.03.1904-cü il***

Dağ daşından inşa edilmiş məscidin giriş qapısının sağ tərəfində, təxminən 2 metr hündürlükdə boz daş üzərində iki sətirdə oyma üsulu ilə kitabə yazılmışdır. Mətni belədir: "Allah, Məhəmməd, Əli, Fatimə, Həsən və Hüseyn".

Giriş qapısının sol tərəfində boz daş üzərində eyni xətt və üsulla yazılmış kitabə isə məscidin inşa tarixini özündə əks etdirir: "Məscidin bina tarixi. 1330".

***1330 h.i. = 22.12.1911 – 10.12.1912-ci il.***

Məscidin şimal divarında, təxminən 3 metr hündürlükdə boz rəngli daş üzərində həkk edilmiş bir kitabə qoyulmuşdur. Daşın mərkəzində bənnaların tikinti zamanı işlətdiyi daş baltasının təsviri, onun yanlarında isə kaman təsviri, baltadan yuxarıda aypara, ayparanın sağ və sol tərəfində isə üçbucaq təsviri həkk olunmuşdur. Daşın sağ və sol tərəfində, kaman təsvirlərinin içərisində kitabə həkk edilmişdir. Ərəb dilində həkk edilmiş kitabənin mətni belədir: "Saf (təmiz) usta Həsənin işidir".

Daşın aşağı tərəfində isə iki sətirdə başqa bir kitabə həkk olunmuşdur. Kitabənin mətni müqəddəs kitab Qurani-Kərimin LXI surəsinin 13-cü ayəsindən götürülmüş bir parçadan ibarətdir. Mətni belədir: "(Sizi hələ) Allah dərgahından kömək və yaxın qələbə (Məkkənin fəthi) gözləyir" [Qurani-Kərimin..., 2015: 551].

Yerli əhalinin şahidliyinə görə, məscidi tikən və adı kitabədə qeyd olunan usta Həsən Cənubi Azərbaycandan gəlmişdir. O, məscidin inşasından sonra onun yaxınlığında hazırda qalan yaşayış binasını da inşa etmişdir.

Nəhəcir kəndinin qərb tərəfində, el arasında "Güney" adlandırılan ərazidə, Şor suya gedən yolun kənarında "Tut piri" adlandırılan ziyarətgah vardır. Hazırda qurumuş vəziyyətdə olan tut ağacından ibarət olan ziyarətgah kənd əhalisi tərəfindən ziyarət edilir. Buraya gələn zəvvarlar qurban kəsir, nəzir verir, ağaca əski parçaları bağlayır, ibadət edirlər. Müqəddəs yer – ziyarətgah insanların qədim inamları ilə əlaqədar yaranmışdır.

Yaşayış məskəninin mərkəzində, el arasında "Nəhəcir piri" adı ilə tanınan başqa bir ziyarətgah da vardır. Bu ziyarətgah isə çox da böyük olmayan və memarlıq baxımından diqqəti cəlb etməyən bir binadan ibarətdir. Burada ziyarət obyekti girişi şərq tərəfdən olan binanın içərisindəki qəbirdir. Ancaq, qəbrin üzərində epiqrafik sənəd – kitabə olmadığı üçün onun mənsubiyyətini və nə üçün ziyarətgaha çevrilməsini, ziyarət olunmasını aydınlaşdırmaq mümkün olmamışdır. İslam dini ilə əlaqədar yaranmış bu pir başqa yerlərdən gələn zəvvarlar, xüsusilə kənd əhalisi tərəfindən ziyarət edilir, nəzir verilir.

Qısa şəkildə sadalanan bütün bu faktlara əsasən deyə bilərik ki, Nəhəcir kəndi qədim zamanlardan başlayaraq böyük inkişaf yolu keçmiş, mənsub olduğu bölgənin inkişaf etmiş yaşayış məskənlərindən biri olmuşdur.

## ƏDƏBİYYAT

*Qurani-Kərimin Azərbaycan dilinə tərcüməsi* (Z.M.Bünyadov & V.M.Məmmədəliyev, tərc.). (2015). Nurlar.

Bağırov, A. (2008). *Naxçıvan oykonimləri*. Nurlan.

Baxşəliyev, V. (2008). *Naxçıvanın arxeoloji abidələri.* Elm.

*İrəvan əyalətinin icmal dəftəri* (Z.Bünyadov & H.Məmmədov (Qaramanlı), araşd., qeyd, əlavə və tərc.). (1996). Elm.

*Naxçıvan abidələri ensiklopediyası*. (2008). AMEA Naxçıvan Bölməsi.

*Naxçıvan Muxtar Respublikası ərazisindəki dünya, ölkə və yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələri*. (2009). Qızıl dağ.

*Naxçıvan sancağının müfəssəl dəftəri* (H. Məmmədov (Qaramanlı), araşd., qeyd və şərh. Z.Bünyadov & H. Məmmədov (Qaramanlı), tərc.). (2001). Elm.

Rzayev, Z. (2013). *Nəhəcirin Orta Tunc dövrü abidələri*. Elm.

Шопен, И.И. (1852). *Исторический памятник состояния Армянской области в эпоху её присоединения к Российской империи*. Типография Императорской Академии Наук.

**Daxilolma tarixi: İlkin variant 21.05.2026**
**Son variant 01.06.2026**